

**Əli İsmayılov**

# Oğullar

Doğulduğu gündən Vətən yarağı,
Kəfəni üçrəngli Vətən bayrağı.
Qanlı döyüşlərdən gəldi sorağı,
Əsigrədi canın bizdən oğullar?

Çoxu halallaşdı analarilə,
Çoxu qovuşmadı sonalarilə.
Vətən torpağına öz qanlarilə,
Adların əbədi yazan oğullar!

Dağların başında qar ətək-ətək,
Dağda döyüşməyə ər oğul gərək.
Sürüyə təpilən canavarlar tək,
Düşmənin səfini pozan oğullar!

Ömrün baharında qışa düşdülər,
Qayaya düşdülər, daşa düşdülər.
Bəzən tək, bəzən də qoşa düşdülər,
Torpağa - torpaqda gəzən oğullar!

Eşitcək sədanı "Allahu-Əkbər",
Pərən-pərən düşdü dinsiz kafirlər.
Otuzillik çirki təmizlədilər,
Çəkdilər Şuşada Azan oğullar!

Müzəffər ordunun baş komandanı,
İlhamdan aldılar əzmi, ilhamı.
İt kimi qovdular xain düşməni,
Yaratdılar yeni düzən oğullar!

Türk oğlu hayqıdrı Alparslan kimi,
Şah Xətai kimi, Ərdoğan kimi.
Yaydılar dünyaya Türkün səsini,
Nisgilli "Qarabağ şikəstəsi"ni,
Döyüşçü oğullar, ozan oğullar!